Azerbaijan Energy Regulatory Agency

**Enerji Məsələlərini Tənzimləmə Agentliyi**

# VAKANSİYA ELANI

## Enerji effektivliyi departamenti– Kreditləşmə sektorunun müdiri

**Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il 1750 nömrəli Fərmanı ilə yaradılmışdır və Azərbaycanda elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin şəffaflıq prinsipi çərçivəsində tənzimlənməsini, müəssisələrin fəaliyyətinin operativ və dəqiq təhlilini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.**

### VƏZİFƏ ÖHDƏLİKLƏRİ:

- Departamentin Əsasnaməsinə uyğun olaraq müəyyən edilmiş vəzifələrin icrasının həyata keçirilməsi;
- Departamentin Kredit sektorunun (bundan sonra – sektor) fəaliyyətinə rəhbərliyin həyata keçirilməsi;
- Sektorun fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasının təşkil edilməsi, yoxlanılması və buna nəzarətin həyata keçirilməsi;
- Öz fəaliyyətinə və kredit məhsullarına dair qaydaların və təlimatların hazırlanması;
- Sahəsinə uyğun normativ sənədlərin hazırlanması və ya hazırlanmasında iştirak;
- Sektorun fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili göstərişlərin verilməsi, sektorun əməkdaşları arasında iş bölgüsünün aparılması;
- Kredit risklərinin təhlili prosesində lazımi hesabatlıqların tərtib edilməsi, dair məlumatların analizlərini həyata keçirilməsi ;
- Layihələrin maliyyələşməsi, qiymətləndirilməsi ilə bağlı iş təcrübəsi;
- Risklərin ölçülməsi modelləri ilə bağlı gündəlik, aylıq, rüblük ve illik hesabatların layihəsinin hazırlanılması;
- Sektorun fəaliyyət istiqaməti üzrə risklərin müəyyənləşdirilməsi və onların idarəolunması;
- Kredit komandasına rəhbərlik və effektiv kommunikasiyanın təmin edilməsi;
- Səlahiyyətlərinə aid olan məsələlərlə bağlı konfrans, iclas, seminar və digər tədbirlərdə iştirak;

### TƏLƏBLƏR:

- Ali iqtisadi təhsil
- Maliyyə-kredit sahəsində azı 5 illik iş təcrübəsi
- Müvafiq sahədə rəhbər vəzifəsində azı 3 illik iş təcrübəsi
- Müvafiq sahədə MHBS üzrə nəzəri bilikləri və praktiki tətbiqlə bağlı təcrübə
- Maliyyə-təsərrüfat fəaliyyətinin təhlili üzrə iş təcrübəsi
- Uçotun təşkili üzrə iş təcrübəsi
- Avtomatlaşdırılmış əməliyyat sistemlərində iş üzrə təcrübə
- Metodoloji fəaliyyətlə (biznes prosedurların, qaydaların yazılması) bağlı iş təcrübəsi
- Müvafiq sahədə risklərin idarə edilməsi ilə bağlı təcrübə
- Azərbaycan dilini səlis bilməli, ingilis dili yaxşı səviyyədə rus dili arzuolunandır;
- İdarəetmə və komandada işləmə bacarığı
- Yaş həddi 50 yaşadək
- Yüksək korporativ ünsiyyət bacarığı

### DİGƏR:

- Əmək bazarına uyğun rəqabətli əmək haqqı və mükafatlandırma;
- İş yerinin ünvanı: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 84.

Vakant vəzifə ilə maraqlanan şəxslər anketlərini (CV-lərini) **vacancy@regulator.gov.az** poçt ünvanına göndərə bilərlər. Müraciətin mövzu hissəsinə mütləq şəkildə vakansiyanın adını (**Enerji effektivliyi departamenti–Kreditləşmə sektorunun müdiri)** qeyd edin.